# Batumidə Novruz bayramı - Fotolar

Yazan
16.03.16 17:52

**Azərbaycan Respublikasının Batumi şəhərindəki Baş Konsulluğunun təşkilatcılığı ilə mart ayının ayının 15-də Azərbaycan,rus və gürcü şagirdlərinin təhsil aldığı Batumi şəhər "21-ci əsr" gimnaziyasında Novruz bayramına həsr edilmiş tədbir keçirilib.**



**"Dalğa TV"** xəbər verir ki, tədbirdə , "21-ci əsr" gimnaziyasının müəllim kollektivi, Acarıstan Muxtar Respublikasının ictimai və siyasi dairələrin nümayəndələri, M.F.Axundov adına Gürcüstan-Azərbaycan xeyriyyə cəmiyyətinin sədri Vidadi Axundov, KİV nümayəndələri iştirak edib.

Tədbirdə şagirdlər Novruzla bağlı müxtəlif səhnəciklər göstəriblər, mahnılar, rəqslər ifa ediblər və bahara, Novruz bayramına həsr olunan şeirlər söyləyiblər.Milli geyimdə olan istedadlı azəri və gürcü şagirdləri tərəfindən Azərbaycan tarixi haqqında qonaqlara məlumat verilib. Tədbirdə milli geyimdə olan Bahar qızının qədim, qəlbimizin bir parçası olan Şuşamızın və Qarabağımızın "Sari Gəlin "rəqsi ilə xatırlanması qonaqlar tərəfindən xüsusi maraqla qarşılanıb.


საქართველო
Azərbaycan

**Batumidə Novruz bayramı - Fotolar**

Yazan
16.03.16 17:52

